Respublika .- 2025.- 13 iyun (№120).- S.12.

**Azərbaycan Respublikasının Xalq artisti Teyyub Aslanovun "Dostlarımla birgə" adlandırdığı solo konsertində keyfiyyətli musiqi, möhtəşəm ifa və incəliklə seçilmiş repertuar dinləyicilərin ruhuna toxunaraq onlarda dərin emosiyalar yaşatdı və unudulmaz anlar bəxş etdi. Teyyub Aslanov məlahətli səsi ilə izləyicilərlə dolu olan Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının zalını gah**



# Bir gecəyə sığmayan musiqi dünyası



**dərin duyğuların sükutuna qərq etdi, gah da alqış seli içində coşqun bir ehtirasa sürüklədi.**

Fasiləsiz iki saat davam edən konsert boyunca Teyyub Aslanov həm ifaçı, həm aparıcı, həm də qiraətçi kimi səhnəni dolğun və çoxşaxəli bir sənət platformasına çevirdi. O, gah oxudu, gah dəfi ilə ritm tutaraq konsertə xüsusi canlılıq qatdı, gah da qiraət edərək bizi tariximizlə fəxr etməyə səslədi. Çıxışına Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Koroğlu şikəstəsi", ardınca isə aşıq mahnısı olan "Döymə Kərəmi" ilə başlayan ustad sənətkar tamaşaçıları sözdən öncə musiqi ilə salamladı. Zamanın qatlarında unudulmuş bəzi mahnılara yeni nəfəs verdi.

Gecədə Azərbaycan muğam sənətinin korifeylərindən, Xalq artisti, professor, tarzən Vamiq Məmmədəliyev, ADMİU-nun rektoru, professor, Əməkdar incəsənət xadimi Ceyran Mahmudova, Azərbaycan Milli Konservatoriyasının rektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə, mədəniyyət nazirinin müşavri, Əməkdar incəsənət xadimi Cahangir Səlimxanov, Prezident mükafatçıları, tarzən Zamiq Əliyev və Ağasəlim Abdullayev, eyni zamanda tar və ud ifaçısı Mircavad Cəfərov, tarzən Firuz Əliyev, kamança ifaçısı Ağacəbrayıl Abasəliyev, qarmon ifaçısı Ənvər Sadıxov, Qran-Pri mükafatçısı, xanəndə Simarə İmanova, "Şöhrət" ordenli muğam ifaçısı Səkinə İsmayılova, Gülyaz Məmmədova və Özbəkistanın da Xalq artisti olan Gülyanaq Məmmədova, əməkdar artistlər Mirazim Əsədullayev, Nuriyyə Hüseynova, İsmayıl Həmidov və Əməkdar mədəniyyət işçisi aşıq Samirə də var idi. Konserti möhtəşəm edən, Teyyub Aslanovla səhnəni bölüşən "Xarıbülbül" muğam qrupu üzvlərinin əməyini də xüsusilə vurğulamaq lazımdır:

Dinləyicilər ayaq üstə Teyyub Aslanovu bir neçə dəqiqə alqışladılar.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**